**Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi**

**Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının QHT nümayəndəsinin minaya düşməsi ilə bağlı**

# Bəyanatı

2023-cü il aprelin 26-da Tərtər rayonunun işğaldan azad olunan Suqovuşan kəndi ərazisində mina partlayışı baş verib. Hadisə nəticəsində Beynəlxalq Avrasiya Mətbuat Fondunun İcma Mina Aksiyası Komandasının sürücüsü Babaşov Xəzər Tariyel oğlu ağır bədən xəsarətləri almış və sağ ayağı dizdən aşağı amputasiya olunmuşdur.

Bu hadisə Azərbaycan ərazisində növbəti mina terroru kimi qiymətləndirilməlidir. Ermənistan 30 ilə yaxın bir dövr ərzində Azərbaycanın Qarabağ bölgəsindəki şəhər və rayonlarını yalnız işğal altında saxlamaqla kifayətlənməyib, həm də günahsız insanları qətlə yetirmək məqsədilə həmin əraziləri qəsdən kütləvi şəkildə minalayıb. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində baş vermiş çoxsaylı mina partlayışları nəticəsində indiyə qədər, ümumilikdə 286 nəfər mina terrorunun qurbanına çevrilib və onlardan 48 nəfəri həlak olub.

Ermənistan Respublikası nəinki ötən illər ərzində basdırdığı minaların dəqiq xəritələri haqqında ölkəmizə məlumat vermir, bu gün də təxribatlarını davam etdirərək Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərinə yenidən minalar basdırır, nəticədə mülki şəxslərin və hərbçilərin həyatı ciddi təhlükə altına düşür.

Bir daha dünya ictimaiyyətinə, o cümlədən insan hüquqlarının müdafiəsi ilə məşğul olan beynəlxalq təşkilatlara səslənərək insan hüquq və azadlıqlarının müdafiəsi məqsədilə bu məsələdə qətiyyətli mövqe nümayiş etdirməyə çağırırıq.